# AMEA Rəyasət Heyəti qərara aldı

**AMEA-nınFizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin** 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatı dinləyib müzakirə edərək Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALDI (№ 1/1, 10 yanvar 2018-ci il):**

*– AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinin 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat təsdiq edilsin.*

*– Bölmənin elmi müəssisələrində 2017-ci ildə alınmış mühüm nəticələr bəyənilsin və Azərbaycan Milli Elmlər Akademiyasının illik hesabatına daxil edilsin.*

*– Bölmənin elmi istiqamətləri üzrə ona daxil olmayan elmi tədqiqat və təhsil müəssisələrində əldə edilmiş mühüm nəticələr bəyənilsin və Azərbaycan Milli Elmlər Akademiyasının illik hesabatına daxil edilsin.*

*– Bölmə üzrə ümumi statistik məlumatlar nəzərə alınsın və Azərbaycan Milli Elmlər Akademiyasının illik hesabatına daxil edilsin (əlavə 3).*

*– AMEA-nın Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsində elmi tədqiqatların istiqamətləri qəbul edilsin.*

*– AMEA-nınFizika-Riyaziyyat və Texnika Elmləri Bölməsinə (akademik Nazim Məmmədov) tapşırılsın:*

*• təcrübi və nəzəri tədqiqatların riyazi modelləşdirilməsi, nəticələrinin işlənilməsi üçün hesablama resruslarına olan tələbatın artmasını nəzərə alaraq Fizika İnstitutunda İnformasiya Texnologiyaları İnstitutu ilə birgə 1-ci Milli GRİD seqmentinin təkmilləşdirilməsi və 2-ci Milli Grid seqmentinin yaradılması üzrə işlərinicra olunması 1 il ərzində yekunlaşdırılsın;*

*• AMEA-nın Fizika İnstitutunda "Kvant İnformatikası" baza laboratoriyasının nəzdində BNTİ-nin İnformasiya texnologiyaları laboratoriyası ilə birgə kvant hesablamaları və alqoritmləri sahəsində kadr hazırlığı üçün virtual distant təlim infrastrukturu yaradılsın.*

*◆ AMEA-nın Fizika İnstitutunda:*

*• kondensə olunmuş hal fizikası sahəsində institutun tədqiqatlarında yük zərrəcikləri və spinlərin dissipativsiz transportunu təmin edən sistemlərin tədqiqinə prioritet verilsin;*

*• Milli Aviasiya Akademiyası, "Azərkosmos" ASC, Nəsrəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanası ilə birgə yeni yaradılmış "Kosmos və ətrafı kosmik fəzanın fizikası" laboratoriyasında Milli Kosmik Proqram çərçivəsində istifadəsi mühüm əhəmiyyət daşıyan CdTe əsaslı ko-planar qrid və planar detektorların yaradılması texnologiyası 3 il ərzində işlənilsin.*

*◆ AMEA-nın İdarəetmə Sistemləri İnstitutunda:*

*• sənaye obyektlərində geniş istifadə olunan asinxron mühərriklərin optimal rejimdə işləməsini, mühafizəsini və idarə olunmasını təmin edən rəqəmsal tezlik çeviricilərinin AMEA Yüksək Texnologiyalar Parkında2018-2019-cu illər ərzində istehsalı təşkil edilsin;*

*• ekstremal istismar şəraitində işləyən sənaye obyektlərində qəzaların baş verməsinin gizli dövrünə və inkişaf dinamikasına nəzarət etməyə imkan verən intellektual Robust noice texnologiyalarının işlənilməsi sürətləndirilsin.*

*◆ Şamaxı Astrofizika Rəsədxanasında:*

*• kosmik eksperimentlər vasitəsilə Günəş küləyi plazmasında müşahidə olunan turbulensiyanın mənşəyinin izahı və onun geomaqnit qasırğalarının diaqnostikasında istifadəsinin əsaslarının yaradılması üçün2 il ərzində nəzəri model işlənilsin;*

*• zəif göy cisimlərinin spektral müşahidəsinin aparılması üçün CCD işıq qəbuledicisi tətbiq edilməklə Universal difraksiyaqəfəsli spektroqraf 2018-ci il ərzində təkmilləşdirilsin.*

*◆ AMEA-nın Radiasiya Problemləri İnstitutunda:*

*• xüsusi təyinatlı elmi-tədqiqat işləri genişləndirilsin və hazırlanmış mikropikselli selvari fotodiodların aşağı temperaturlarda aparılan təcrübələrdə tətbiqi imkanları qısa zaman ərzində araşdırılsın.*

*◆ AMEA-nın İnformasiya Texnologiyaları İnstitutunda:*

*• Big Data analitikası texnologiyalarının tətbiqi ilə elektron demoqrafiya və onun funksional sistemlərinin formalaşmasının elmi-nəzəri əsasları araşdırılsın.*

*◆ AMEA-nın Biofizika İnstitutunda:*

*• amiloid xəstəliklərininin modeli kimi fibroin zülalının aqreqasiya kinetikası tədqiq edilsin və AMEA-nın Riyaziyyat və Mexanika İnstitutu ilə birgə riyazi modeli yaradılsın.*

*◆ AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda:*

*• AMEA-nın Biofizika İnstitutu və Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu ilə birgə bioloji sistemlərdə çoxkomponentli kinetik proses-*

*lərin riyazi modellədirilməsi, proqnozlaşdırılması yerinə yetirilsin və müvafiq diaqnostik aparat yaradılsın;*

• *respublikada riyaziyyat sahəsində istedadlı gənclərin aşkar edilməsi, istiqamətləndirilməsi və elmi tədqiqatlara cəlb olunması, gənc nəsil arasında riyaziyyat elminin təbliğinin böyük əhəmiyyətini nəzərə alaraq, 2017-ci ildə AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunda yaradılmış "Gənc riyaziyyatçılar məktəbi"nin fəaliyyətinin genişləndirilməsi, onlayn mühazirə və seminarların keçirilməsinin təşkilinə diqqət artırılsın.*

*– Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.*

* * *

**AMEA-nın Kimya Elmləri Bölməsinin** 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatını dinləyərək, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALDI (№ 2/1, 15 yanvar 2018-ci il):**

*– AMEA-nın Kimya Elmləri Bölməsinin 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat təsdiq edilsin.*

*– AMEA-nın Kimya Elmləri Bölməsi və bölmədənkənar elm və təhsil müəssisələri üzrə 2017-ci ildə alınmış mühüm elmi və tətbiqi nəticələr təsdiq edilsin və Akademiyanın illik hesabatına daxil edilsin.*

*– Dövlət Proqramlarının icrası ilə əlaqədar görülmüş işlər bəyənilsin.*

*– AMEA-nın Kimya Elmləri Bölməsi üzrə statistik məlumatlar nəzərə alınsın və AMEA-nın illik hesabatına daxil edilsin.*

*– AMEA-nın Kimya Elmləri Bölməsinə (akademik Dilqəm Tağıyev) tapşırılsın:*

◆ *Elmi tədqiqatların AMEA Rəyasət Heyətinin 19 oktyabr 2016-cı il tarixli 13/1 nömrəli qərarında qeyd edilən prioritet "Bərpa olunan və yerli xammal əsasında alternativ enerji mənbələrinin, unikal xassəli qeyri-üzvi və polimer materialların, nanokatalizatorların, nano- və biokompozitlərin və fizioloji fəal birləşmələrin yaradılması" istiqaməti üzrə aparılması təmin edilsin;*

◆ *Strateji yol xəritəsində AMEA-ya aid olan tapşırıqların, o cümlədən idxal əvəzedici kimya məhsullarının alınması, hidrotexniki qurğuların korroziyadan mühafizəsi, alunitin elektrokimyəvi üsula əsaslanan yeni emal texnologiyası üçün pilot qurğusunun yaradılmasına xüsusi diqqət verilsin (2018);*

◆ *Beynəlxalq qrant müsabiqələrinə təqdim edilən layihələrin və Web of Science bazasına daxil olan İmpakt faktorlu jurnallarda çap edilən məqalələrin sayı artırılsın (2018 və sonrakı illər);*

*– AMEA-nın Kimya Elmləri Bölməsinin institutlarına tapşırılsın:*

◆ *Akademik Yusif Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu (akademik Vaqif Abbasov):*

• *ağır neft qalıqlarının və yanar şistlərin birgə emal prosesləri üçün yeni texnologiyalar işlənilsin (2018-2019);*

• *bərpa olunan xammaldan "yaşıl kimya"nın prinsipləri əsasında biodizel yanacağının alınması üçün tullantısız texnologiya işlənilsin (2018);*

• *kompüter modelləşdirilməsi vasitəsilə neftin emal dərinliyini artırmaq üçün ağır neft qalıqlarından benzin və dizel yanacağının alınma prosesləri optimallaşdırılsın (2018).*

◆ *Akademik Murtuza Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitutu (akademik Dilqəm Tağıyev):*

• *xərçəng xəstəliyinə qarşı istifadə olunan doksorubisin və digər antibiotiklərin təsir müddətinin uzadılması və daşınması məqsədilə onların immobilizasiyası üçün polimer nanogellərin və nanobiokompozitlərin sintezi və tədqiqi sahəsində Milli Onkologiya Mərkəzi ilə birgə multidissiplinar tədqiqatlar aparılsın (2018-2020);*

• *spintronikada və kvant kompüterlərində informasiya daşıyıcısı kimi istifadə olunan yeni qeyri-üzvi maddələrin – topoloji Dirak materiallarının yaradılması istiqamətində fundamental tədqiqatlar aparılsın (2018-2019).*

◆ *Akademik Əli Quliyev adına Aşqarlar Kimyası İnstitutu (akademik Vaqif Fərzəliyev):*

• *mühərrik yağlarının keyfiyyətini yaxşılaşdıran çoxfunksiyalı aşqarların alınması və istehsalının təşkili AMEA-nın Yüksək Texnologiyalar Parkı ilə birgə həyata keçirilsin (2018);*

• *antioksidantxassəli yeni fizioloji fəal üzvi birləşmələrin sintezi və onların patoloji proseslərdə iştirak edən bəzi fermentlərə inhibitor kimi təsirinin öyrənilməsi üçün Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu ilə birgə multidissiplinar tədqiqatlar aparılsın (2018-2019).*

◆ *Polimer Materialları İnstitutu (AMEA-nın müxbir üzvü Bəxtiyar Məmmədov):*

• *ifrat yüksək molekul kütləli polietilen əsasında xüsusi təyinatlı materialların hazırlanması üçün tədqiqatlar aparılsın və AMEA-nın Yüksək Texnologiyalar Parkında zirehli jiletlərin istehsalı prosesində istifadə edilsin (2018).*

*– Qərarın icrasına nəzarət AMEA-nın vitse-pre-*

*zidenti, akademik Dilqəm Tağıyevə həvalə edilsin.*

* * *

**AMEA-nın Gəncə Bölməsində** 2017-ci ildə aparılmış elmi tədqiqat işlərinin yekunlarına dair hesabatı dinləyərək Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALDI (№ 2/3, 15 yanvar 2018-ci il):**

*– AMEA-nın Gəncə Bölməsinin 2017-ci il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatı qənaətbəxş hesab edilsin.*

*– AMEA-nın Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyevə tapşırılsın:*

*◆ Qərb bölgəsinin yerli xammallarından və aqrosənaye tullantılarından istifadə etməklə piqmentlər və yağların alınması texnologiyasına xüsusi diqqət yetirilsin;*

*◆ regionda ekoloji problemlərin həlli ilə bağlı uzun illər ərzində toplanmış filiz və qeyri-filiz yataqlarının tullantılarının pasportlaşdırılması və tətbiq sahələrinin öyrənilməsi;*

*◆ Qərb bölgəsində toplanmış su hövzələrinin, çayların mikrobioloji və sanitar-hidrobioloji vəziyyətinin tədqiq edilməsi istiqamətində işlər davam etdirilsin;*

*◆ Azərbaycanın Qərb rayonlarının geotermik şəraiti və burada geotermal enerjidən istifadə perspektivlərinin öyrənilməsinə xüsusi diqqət yetirilsin;*

*◆ Kiçik Qafqaz-Gəncə-Qazax zonasının təbii resurslarının, yerin fiziki sahələrinin və geoloji quruluşun, alternativ enerji mənbələrinin, seysmo-geodinamik şəraitin və geoloji təhlükələrin müasir nəzəriyyə və vasitələrlə öyrənilməsi davam etdirilsin;*

*◆ Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin həyat və yaradıcılığı, əsərlərinin mövzu, ideya və tarixilik baxımından araşdırılmasının tədqiqi davam etdirilsin;*

*◆ Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında Gəncənin önəmli rolu araşdırılsın;*

*◆ Azərbaycan ədəbi məktəbinin böyük nümayəndələrindən biri olan Mirzə Şəfi Vazeh yaradıcılığının araşdırılması istiqamətində tədqiqatlar davam etdirilsin;*

*◆ Prioritet istiqamətlərdən biri olan yüksəkixtisaslı elmi kadrların hazırlanmasına və elm-təhsil-istehsalın inteqrasiyasına xüsusi diqqət yetirilsin.*

*2. Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.*

* * *

**AMEA-nın Yer Elmləri Bölməsinin** 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatını dinləyərək Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALDI (№ 3/1, 24 yanvar 2018-ci il):**

*– AMEA-nın Yer Elmləri Bölməsinin 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat təsdiq edilsin.*

*– AMEA-nın Yer Elmləri Bölməsi və bölmədənkənar müəssisələr üzrə 2017-ci ildə alınmış mühüm elmi və tətbiqi nəticələr təsdiq edilsin və AMEA-nın illik hesabatına daxil edilsin.*

*– Dövlət Proqramlarının icrası ilə əlaqədar görülmüş işlər bəyənilsin (əlavə 3).*

*– AMEA-nın Yer Elmləri Bölməsi üzrə statistik məlumatlar nəzərə alınsın və AMEA-nın illik hesabatına daxil edilsin.*

*– AMEA-nın Yer Elmləri Bölməsinə və onun elmi müəssisələrinə tapşırılsın:*

*◆ Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 9 noyabr 2015-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının 70 illik yubileyinə həsr olunmuş Ümumi yığıncaqdakı nitqindən irəli gələn vəzifələri həyata keçirmək üçün Yer elmləri sahəsində elmi tədqiqatlar, başlıca olaraq, prioritet istiqamətlər üzrə aparılsın;*

*◆ Bölməyə daxil olan müəssisələrin strukturlarının yenilənməsi elmi istiqamətlərin inteqrasiyalı şəraiti nəzərə alınaraq həyata keçirilməsinə diqqət edilsin;*

*◆ Yer elmləri sahəsinin aktual problemləri üzrə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərsu Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə Dövlət Proqramlarının şərikli inkişafı istiqamətində tədbirlər həyata keçirilsin (2018-ci il ərzində);*

*◆ Yer elmləri sahəsinin aktual problemləri üzrə Azərbaycan Dövlət Neft Şirkəti, Fövqəladə Hallar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərsu Açıq Səhmdar Cəmiyyəti və təhsil müəssisələri (Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Milli Aviasiya Akademiyası) ilə birlikdə Azərbaycan Respublikasının Dövlət Proqramlarında və Milli İqtisadiyyat Perspektivi üzrə Strateji Yol Xəritəsi Planında nəzərdə tutulmuş müvafiq tədbirlər vaxtında və yüksək səviyyədə həyata keçirilsin (2018-ci il ərzində);*

*◆ Azərbaycanın Cənubi-Xəzər Hövzəsinin zəngin karbohidrogen ehtiyatlarına malik nəhəng yataqlarının (Abşeron yarımadası, Abşeron astanası – Neft Daşları, Azəri, Çıraq, Günəşli və s.), yaxın ətraflarda (Şah-dəniz, Bahar, Abşeron və s.) geodinamik mənşəli olmasını, onların kolliziya (subduksiya) zo-*

*nası və akkresiya prizması üzərində təşəkkül tapması ilə əlaqəsini elmi əsaslandırmaq üçün geniş miqyaslı geofiziki, seysmostratiqrafik və hövzə modelləşdirilməsi sahəsində tədqiqatlar planlaşdırılsın. Akademik Pərviz Məmmədov "Cənubi-Xəzər Hövzəsi litosferinin formalaşmasının geodinamik şərtləri və çöküntü qatında perspektivli neft-qaz strukturlarının yaranmasının geoloji-geofiziki əsaslandırılması" mövzusunda elmi tədqiqat işinin planını hazırlayaraq müzakirəyə təqdim etsin (oktyabr, 2018);*

*◆ Yerin geofiziki və seysmik məlumatlarının Milli GRİD Sistemi, AzScienceNet şəbəkəsinin Data Mərkəzi bazalarında yerləşdirilməsi və qanunauyğunluqların araşdırılması müasir riyazi metodların tətbiqi ilə həyata keçirilsin (2018-ci il ərzində, AMEA-nın Riyaziyyat və Mexanika, Fizika və İnformasiya Texnologiyaları institutları ilə birlikdə);*

*◆ AMEA-nın Neft və Qaz İnstitutu İdarəetmə Sistemləri İnstitutu ilə birlikdə "İntellektual yataq" konsepsiyasının nəzəri əsaslarını hazırlasın və müzakirəyə təqdim etsin (iyun, 2018-ci il, Yer Elmləri Bölməsi və Fizika-Riyaziyyat və Texnika Elmləri Bölməsi);*

*◆ İqlim dəyişmələri fonunda Xəzər dənizinin Azərbaycan sahil zonasının dinamikası və geomorfologiyasının, həmçinin sosial-iqtisadi və ekoloji şəraitinin öyrənilməsinə dair elmi tədqiqatlarda Azersky və digər peyklərin məlumatlarından geniş istifadə olunsun və birlikdə elmi tədqiqat işləri aparılması təşkil edilsin (akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu, elmi işlər üzrə direktor müavini Məhərrəm Həsənov);*

*◆ Mültidissiplinar yanaşma əsasında Xəzər dənizinin kompleks problemlərinin həllində Xəzər dənizinin kompleks modelinin hazırlanması məqsədi ilə müştərək tədqiqatların aparılması təşkil olunsun. Akademik Ramiz Məmmədova "Xəzər dənizinə axan çayların sülb axının zaman-məkan dəyişkənliyinin geoloji və hidroloji əsaslarının tədqiqi və Azərbaycan sahillərinin dayanıqlığı" (Исследование геолого-гидрологической основы пространственно-временной изменчивости твердого стока рек, впадающих в Каспийское море, и устойчивости Азербайджанского побережья) mövzusunda elmi tədqiqat planı hazırlayaraq Yer Elmləri Bölməsinə müzakirəyə təqdim etsin (oktyabr, 2018);*

*◆ Yer Elmləri Bölməsinin institutlarında elmi tədqiqat işlərinin innovativ nəticələri müəyyən edilsin və Yüksək Texnologiyalar Parkında onların təcrübi-sənaye sınaqlarının aparılmasının məqsədəuyğunluğu müzakirə edilsin (iyun, 2018-ci il, Yüksək Texnologiyalar Parkı ilə birlikdə);*

*◆ Abşeron astanasının və Şimali Abşeron qırışıqlar zonasının Böyük Qafqaz və Kopetdağ orogenləri ilə struktur əlaqəsini araşdırmaq, onların genetik mənşəyinin, yaranma tarixlərinin və geodinamik şəraitinin öyrənilməsi sahəsində geoloji, geofiziki tədqiqatlar aparılsın;*

*◆ Yüksəkixtisaslı kadrların yetişdirilməsi, doktorant, dissertant, magistr hazırlığını gücləndirmək məqsədilə Yer Elmləri Bölməsi müəssisələri Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti ölkə xaricindəki mütəxəssislərlə əlaqələrin genişləndirilməsi istiqamətində 2018-ci ildə görüləcək tədbirlər planını hazırlayıb Yer Elmləri Bölməsinə müzakirəyə təqdim etsinlər (aprel, 2018);*

*◆ Avropa İttifaqının Çərçivə Proqramları hüdudunda Beynəlxalq proqram, layihələr, ikitərəfli və çoxtərəfli razılaşmalar əsasında beynəlxalq elmi əməkdaşlıq genişləndirilsin;*

*◆ Yer Elmləri Bölməsi müəssisələrinin rəhbərləri 2018-ci ildə Yer elmləri üzrə təhsil proqramlarına uyğun planlaşdırılan dərsliklərin və elmi-kütləvi broşürların siyahısını hazırlayaraq Yer Elmləri Bölməsinə müzakirəyə təqdim etsinlər (may 2018-ci il).*

*– Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.*

* * *

**AMEA Lənkəran Regional Elmi Mərkəzinin** 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatını dinləyərək Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALDI (№ 3/2, 24 yanvar 2018-ci il):**

*– AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinin 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat təsdiq edilsin.*

*– Dövlət proqramlarının icrası ilə əlaqədar görülmüş işlər bəyənilsin (əlavə 1).*

*– AMEA-nın Lənkəran Regional Elmi Mərkəzi üzrə statistik məlumatlar nəzərə alınsın və AMEA-nın illik hesabatına daxil edilsin (əlavə 2, cədvəllər 1-9).*

*– AMEA-nın Lənkəran Regional Elmi Mərkəzinə (aqrar elmlər üzrə elmlər doktoru, professor Fərman Quliyev) tapşırılsın:*

*◆ Lənkəran Regional Elmi Mərkəzində elmi tədqiqat işlərinin aparılması məqsədi ilə Lənkəran, Astara, Masallı və Lerik rayonlarında dayaq məntəqələrinin yaradılması istiqamətində tədbirlər planı hazırlansın;*

*◆ Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Lənkəran bölgəsində fəaliyyət göstərən elmi müəssisələrinin torpaq və digər resurslarından istifadə edərək Lənkəran Regional Elmi Mərkəzi ilə müştərək elmi-tədqiqat və təsərrüfat işlərinin aparılması nəzərdə tutulsun;*

*◆ Lənkəran Regional Elmi Mərkəzində Distant Tədris Mərkəzinin yaradılması istiqamətində işlər aparılsın;*

*◆ AMEA-nın Lənkəran Regional Elmi Mərkəzi ilə Gürcüstan, İran və Türkiyə Respublikasının müvafiq elmi müəssisələri arasında əməkdaşlıq genişləndirilsin;*

*◆ AMEA-nın müvafiq elmi müəssisələri ilə müştərək tədqiqat işlərində aktiv əməkdaşlıq edilsin;*

*◆ İnnovativ layihələrin həyata keçirilməsi istiqamətinə diqqət edilsin;*

*◆ Bölgənin aqroiqlim potensialının öyrənilməsi və xəritələnməsi nəzərdə tutulsun;*

*◆ "Lənkəran arxeoloji abidələri" adlı monoqrafiyanın və "Lənkəranın arxeoloji xəritəsi"nin hazırlanması istiqamətində tədbirlər planı hazırlansın.*

*– Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.*

* * *

**AMEA-nın Şəki Regional Elmi Mərkəzinin** 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatını dinləyərək Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALDI (№ 3/4, 24 yanvar 2018-ci il):**

*– AMEA-nın Şəki Regional Elmi Mərkəzinin 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabat təsdiq edilsin.*

*– AMEA-nın Şəki Regional Elmi Mərkəzində 2017-ci ildə alınmış mühüm elmi və tətbiqi nəticələr təsdiq edilsin və AMEA-nın illik hesabatına daxil edilsin.*

*– AMEA-nın Şəki Regional Elmi Mərkəzi üzrə statistik məlumatlar nəzərə alınsın və AMEA-nın illik hesabatına daxil edilsin.*

*– AMEA-nın İnformasiya Texnologiyaları İnstitutuna tapşırılsın ki, AMEA-nın Şəki Regional Elmi Mərkəzində Distant Tədris Mərkəzinin yaradılması təmin edilsin.*

*– AMEA-nın Şəki Regional Elmi Mərkəzinə (fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Yusif Şükürlü) tapşırılsın ki:*

*◆ "Azərbaycan 2020 - Gələcəyə baxış" İnkişaf Konsepsiyasında qeyd olunan 2016-2020-ci illərdə innovativ yönümlü "Azərbaycanın Şimal-Qərb bölgəsinin aqro-ekoloji inkişaf modelinin hazırlanması" istiqamətində nəzərdə tutulmuş tədbirlərin AMEA-nın müvafiq institutları və beynəlxalq qurumlarla əməkdaşlıq çərçivəsində həyata keçirilməsi təmin edilsin;*

*◆ AMEA-nın Şəki Regional Elmi Mərkəzinə daxil olan strukturların elmi istiqamətlərin inteqrasiyası şəraitində tədqiqatlarının yenilənməsi həyata keçirilsin;*

*◆ Aparılan tədqiqatlar sahəsində dövlət əhəmiyyətli məsələlərin həllində AMEA-nın aidiyyəti elmi müəssisələri (Genetik Ehtiyatlar İnstitutu, Nizami adına Ədəbiyyat İnstitutu, Fizika İnstitutu, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, Folklor İnstitutu, Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutu, Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu və Geologiya və Geofizika İnstitutu) və beynəlxlaq qurumlarla (Bolqarıstan Kənd Təsərrüfatı Akademiyasının Vratsa "İpəkçilik və Bitkiçilik təcrübə sınaq stansiyası", Plovdiv Aqrar Universiteti, Özbəkistan Təbii Liflərin Elmi Tədqiqat İnstitutu) ilə birlikdə iştiraka diqqət edilsin və niyyət protokollarında nəzərdə tutulan isitqamətlərdə işlər davam etdirilsin;*

*◆ "Milli iqtisadiyyatın əsas sektorları üzrə Strateji Yol Xəritəsi"ndəki tapşırıqların icrası üzrə AMEA-nın "Tədbirlər planı"nda Şəki Regional Elmi Mərkəz üçün tapşırılan "Təbii rəngli ipək alınması texnologiyasının patentləşdirilməsi və sənayedə tətbiqinə hazırlanması" işi iştiqamətində tədqiqatlar davam etdirilsin;*

*◆ Elm və təhsilin inteqrasiyası məqsədi ilə ADPU-nun Şəki filialı ilə birgə fəaliyyət gücləndirilsin.*

*– Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.*

* * *

Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı ilə Azərbaycan Respublikasının vətəndaşları və əcnəbilər ildə bir dəfə mühüm fundamental və tətbiqi elmi nəticələrə, əsərlərə, kəşflərə, ixtiralara, habelə elmin inkişafında xüsusi xidmətlərə görə təltif edilirlər. Azərbaycan Respublikası Prezidentinin 27 iyun 2014-cü il tarixli Fərmanının 2-ci bəndinə əsasən Azərbaycan Respublikasının Nizami Gəncəvi adına Qızıl medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinə verilmişdir.

Qeyd olunanları nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyası Rəyasət Heyəti **QƏRARA ALDI (№ 4/1, 31 yanvar 2018-ci il):**

*– Azərbaycan Respublikasının Nizami Gəncəvi*

*adına Qızıl medalına 2018-ci il üçün müsabiqə elan edilsin.*

*– Nizami Gəncəvi adına Qızıl medala namizədlər AMEA-nın həqiqi və müxbir üzvləri, AMEA-nın elmi bölmələri, elmi tədqiqat və ali təhsil müəssisələrinin elmi şuraları, elmi cəmiyyətlər, nazirlik və dövlət komitələri yanında fəaliyyət göstərən elmi-texniki şuralar tərəfindən irəli sürülə bilər.*

*– Nizami Gəncəvi adına Qızıl medal üçün irəli sürülmüş namizəd haqqında təqdimat, müvafiq sənədlərlə birlikdə, 2018-ci il martın 01-dək AMEA prezidentinin 31 mart 2014-cü il tarixli 42 nömrəli sərəncamı ilə yaradılmış Ekspert Komissiyasına təqdim edilsin.*

*– Ekspert Komissiyasına tapşırılsın ki, ciddi ekspertiza və qiymətləndirmə əsasında iddiaçılar sırasından 2018-ci il martın 15-dək Nizami Gəncəvi adına Qızıl medalla təltif ediləcək namizədlər seçilsin və onlar haqqında müvafiq rəylər AMEA-nın Rəyasət Heyətinə təqdim edilsin.*

*– AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil idarəsinə (AMEA-nın müxbir üzvü Əminağa Sadıqov) tapşırılsın ki, Nizami Gəncəvi adına Qızıl medal müsabiqəsi ilə bağlı təşkilati məsələlər həll edilsin.*

*– Qərarın icrasına nəzarət AMEA-nın prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.*

* * *

Elmin inkişafına böyük töhfələr verən və mühüm nailiyyətlər qazanan alimləri daha yüksəksəviyyəli tədqiqatlar aparmağa həvəsləndirmək, eləcə də Azərbaycanın bir sıra alim və mütəfəkkirlərinin xatirəsini əbədiləşdirmək məqsədilə Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALDI (№ 4/2, 31 yanvar 2018-ci il):**

*– AMEA-nın Nəsrəddin Tusi, Həsən bəy Zərdabi, Akademik Üzeyir Hacıbəyli, Akademik Mirəsədulla Mirqasımov, Akademik Yusif Məmmədəliyev, Akademik Musa Əliyev və Abbasqulu Ağa Bakıxanov adına mükafatları üzrə 2018-ci il üçün müsabiqə elan edilsin.*

*– Nəzərə alınsın ki, AMEA-nın adlı mükafatları öz əsasnamələrinə uyğun olaraq müvafiq elm sahələri üzrə mühüm əhəmiyyətli fundamental və tətbiqi elmi nəticələrə, əsərlərə, kəşflərə və ixtiralara görə verilir.*

*– Mükafatlara namizədlər AMEA-nın həqiqi və müxbir üzvləri, AMEA-nın elmi bölmələri, elmi tədqiqat və ali təhsil müəssisələrinin elmi şuraları, elmi cəmiyyətlər, nazirlik və dövlət komitələri yanında fəaliyyət göstərən elmi-texniki şuralar tərəfindən irəli sürülə bilər.*

*– Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsis edilən dövlət mükafatlarına və digər adlı dövlət mükafatlarına layiq görülmüş işlərin müəlliflərinin həmin işlərə görə AMEA-nın adlı mükafatlarına namizəd kimi irəli sürülməsinə yol verilmir.*

*– Namizədin irəli sürülməsi barədə təqdimat, müvafiq sənədlərlə birlikdə, 2018-ci il martın 01-dək AMEA prezidentinin 31 mart 2014-cü il tarixli 42 nömrəli sərəncamı ilə yaradılmış Ekspert Komissiyasına təqdim edilsin.*

*– Ekspert Komissiyasına tapşırılsın ki, ciddi ekspertiza və qiymətləndirmə əsasında iddiaçılar sırasından 2018-ci il martın 15-dək AMEA-nın adlı mükafatları ilə təltif ediləcək namizədlər seçilsin və onlar haqqında müvafiq rəylər AMEA-nın Rəyasət Heyətinə təqdim edilsin.*

*– AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil idarəsinə (AMEA-nın müxbir üzvü Əminağa Sadıqov) tapşırılsın ki, AMEA-nın adlı mükafatları ilə bağlı keçirilən müsabiqədən irəli gələn təşkilati məsələlər həll edilsin.*

*– Qərarın icrasına nəzarət AMEA-nın akademik-katibi, akademik Rasim Əliquliyevə həvalə edilsin.*

* * *

**AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin** 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatını dinlədikdən və müzakirə etdikdən sonra Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALDI (№ 4/3, 31 yanvar 2018-ci il):**

*– AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyətinin yekunları haqqında hesabatı təsdiq edilsin.*

*– AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinin institutlarında 2017-ci ildə alınmış mühüm nəticələr bəyənilsin və AMEA Rəyasət Heyətinin 2017-ci ildə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabata daxil edilsin.*

*– Dövlət proqramlarının icrası ilə əlaqədar görülmüş işlər bəyənilsin.*

*– AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsi üzrə statistik məlumatlar nəzərə alınsın və AMEA-nın illik hesabatına daxil edilsin.*

*– Kök hüceyrələri üzrə multidissiplinar tədqiqatların aparılması, kadr hazırlığının gücləndirilməsi və gələcəkdə birgə laboratoriyanın yaradılması ilə əlaqədar 3 ay ərzində Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə birlikdə Tədbirlər planı hazırlansın.*

*– AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinə (akademik Əhliman Əmiraslanov) və onun elmi müəssisələrinə tapşırılsın:*

*◆ Yeni tədqiqat dövrü üçün iş proqramları biologiya və tibb elminin müasir çağırışlarına, "Azərbaycan Respublikası Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri"nin, Azərbaycan Respublikasının əlaqədar dövlət proqramlarının və milli strategiyalarının müddəalarına uyğun hazırlanaraq 2018-ci ilin 1-ci rübünün sonuna kimi BTEB-in ümumi iclasında müzakirə və təsdiq edilsin;*

*◆ Bölmə institutları tərəfindən bioloji müxtəlifliyin öyrənilməsi ilə bağlı kompleks ekosistem yanaşmalar və müasir metodlar (aerokosmik, molekulyar-filogenetik, paleontoloji və s.) əsasında növbəti illərdə birgə ekspedisiya tədqiqatları həyata keçirilməsi üzrə 2 ay ərzində konkret proqram hazırlansın. 2018-ci il ərzində Botanika İnstitutu (akademik Validə Əli-zadə), akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu (biologiya üzrə elmlər doktoru Ulduz Həşimova), Zoologiya İnstitutu (fizika üzrə fəlsəfə doktoru Elman Yusifov), Torpaqşünaslıq və Aqrokimya İnstitutu (AMEA-nın müxbir üzvü Əlövsət Quliyev), Mikrobiologiya İnstitutu (akademik Məmməd Salmanov) tərəfindən Abşeron arxipelağı adalarının və ətraf dəniz ekosisteminin öyrənilməsi bu proqrama daxil edilsin;*

*◆ AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu (akademik İradə Hüseynova), akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu (biologiya üzrə elmlər doktoru Ulduz Həşimova), Genetik Ehtiyatlar İnstitutu (AMEA-nın müxbir üzvü Zeynal Əkpərov) epigenetika üzrə tədqiqat proqramları hazırlayaraq 2 ay ərzində Bölmənin müzakirəsinə təqdim etsinlər, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin elmi tədqiqat müəssisələri və Azərbaycan Tibb Universiteti ilə birgə tibbi biologiya üzrə multidissiplinar tədqiqatlara və müvafiq kadr hazırlığına diqqət artırsınlar;*

*◆ AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunda beynəlxalq əməkdaşlıqdan istifadə etməklə struktur biologiyası və inteqrativ biologiya istiqamətində multidissiplinar tədqiqatlar genişləndirilsin;*

*◆ AMEA-nın Botanika İnstitutu, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, Genetik Ehtiyatlar İnstitutu qida təhlükəsizliyi, alternativ enerji mənbələrinin tapılması istiqamətlərində 2018-ci ilin 2-ci rübün sonuna kimi konkret tədqiqat planları hazırlayaraq həyata keçirilməsini təmin etsinlər;*

*◆ AMEA-nın akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutu ilə Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun birgə apardığı qocalmanın fizioloji və molekulyar-genetik mexanizmləri və insan beyninin inteqrativ fəaliyyətinin neyrobioloji və molekulyar-fizioloji əsasları üzrə multidissiplinar tədqiqatları gücləndirilsin;*

*◆ AMEA-nın Mikrobiologiya İnstitutunda "Geniş spektrli (fitostimulyator, immunomodulyator, antifitopatogen) təsirə malik mikrob mənşəli preparatların alınması və tətbiqi" ilə bağlı tədqiqatlara diqqət artırılsın;*

*◆ İnnovativ yönümlü tədqiqatların aparılması və onların nəticələrinin tətbiqi üçün zəruri tədbirlər görülsün, bu istiqamətdə AMEA-nın Yüksək Texnologiyalar Parkı ilə daimi əməkdaşlıq və əlaqələndirmə (o cümlədən müxtəlif oliqonukleitidlərin, yüksək stabil və funksional aktiv vaksinlərin, terapevtik zülalların və sənaye fermentlərinin, eləcə də yeni üzvi gübrələrin, müasir suvarma sistemlərinin istehsalı üzrə) təmin edilsin;*

*◆ Ərzaq təhlükəsizliyinin təmin olunması üçün yerli mədəni bitki və heyvan genefondunun qorunması, xəstəlik və zərərvericilərə qarşı davamlı və keyfiyyətli yeni bitki sortlarının yaradılması üzrə molekulyar və genom seleksiyasının, gen və xromosom mühəndisliyinin istifa-dəsi, seleksiya nailiyyətlərinin intensiv tətbiqi ilə bağlı Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin elmi tədqiqat müəssisələri ilə birgə tədqiqatların aparılmasına dair konkret tədbirlər proqramı sentyabr ayının sonuna kimi hazırlanaraq bölmənin müzakirəsinə çıxarılsın;*

*◆ Elmi nəticələrin beynəlxalq miqyasda tanınması və sahibkarlıq fəaliyyəti ilə məşğul olunması, xidmət yönümlü ödənişli tədqiqat işlərinin genişləndirilməsi üçün zəruri tədbirlər görülsün, Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu və Genetik Ehtiyatlar İnstitutu xidmət yönümlü laboratoriyaların akkreditasiyası və lisenziyalaşdırılmasını həyata keçirsinlər;*

*◆ Bölmənin Ümumi yığıncaqlarından biri elm və təhsilin inteqrasiyası üzrə görülmüş işlərin, təhsil şöbələrinin və bölmə institutlarında universitetlərin baza kafedralarının fəaliyyətinin müzakirəsi və yaxşılaşdırılmasına həsr edilsin;*

*◆ Aparılan tədqiqatların mühüm nəticələrinin nüfuzlu nəşrlərdə çapına diqqət artırılsın.*

*– AMEA-nın Biologiya və Tibb Elmləri Bölməsinə və AMEA-nın İşlər idarəsinə (siyasi elmlər üzrə elmlər doktoru Fətəli Abdullayev) tapşırılsın ki, ANS Şirkətlər Qrupunun AMEA-nın Zoologiya*

*İnstitutunun binasından çıxarılması və həmin sahənin təmir edilərək binası qəzalı vəziyyətdə olan akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunun ora köçürülməsi işi sürətləndirilsin.*

*– Qərarın icrasına nəzarət Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik Akif Əlizadəyə həvalə edilsin.*

* * *

**AMEA-nın Humanitar Elmlər Bölməsinin** 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında dinləyib müzakirə edərək, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALDI (№ 5/1, 07 fevral 2018-ci il):**

*– AMEA-nın Humanitar Elmlər Bölməsinin 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyətinin yekunları haqqında hesabatı təsdiq edilsin.*

*– AMEA-nın Humanitar Elmlər Bölməsinin institutlarında 2017-ci ildə alınmış mühüm nəticələr bəyənilsin və AMEA Rəyasət Heyətinin 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabata daxil edilsin.*

*– Dövlət Proqramlarının icrası ilə əlaqədar görülmüş işlər bəyənilsin.*

*– AMEA-nın Humanitar Elmlər Bölməsi üzrə statistik məlumatlar nəzərə alınsın və AMEA-nın illik hesabatına daxil edilsin.*

*– Humanitar Elmlər Bölməsinin akademik-katibi, akademik Teymur Kərimliyə tapşırılsın:*

*◆ "Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" və "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" sərəncamlarının icrası ilə əlaqədar Tədbirlər Planında nəzərdə tutulmuş işlərin həyata keçirilməsinə nəzarət edilsin (2018-ci ilin birinci yarısı);*

*◆ Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Dövlət Dil Komissiyasının yeni tərkibinin təsdiq edilməsi haqqında" Sərəncamının 2-ci bəndinin icrasına dair Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da yaxşılaşdırılması ilə bağlı uyğun nazirlik və komitələrin iştirakı ilə AMEA tərəfindən hazırlanmış Tədbirlər Planının icrası üzrə işlərin həyata keçirilməsinə nail olunsun (mart-aprel, 2018);*

*◆ 2018-ci ilin 7-10 mart tarixlərində ölkəmizdə keçiriləcək "Muğam simpoziumu"nun təşkili yüksək səviyyədə həyata keçirilsin (xarici və yerli qonaqlarla bağlı iş, məqalələr toplusunun çap edilməsi, regionlara səfərlərin təşkili, açılış və yekun iclaslarının keçirilməsi və s.);*

*◆ II Beynəlxalq Türkoloji Qurultayın təşkili və keçirilməsi ilə bağlı Humanitar Elmlər Bölməsinin və İctimai Elmlər Bölməsinin institut və təşkilatlarından müvafiq təkliflər alınmaqla AMEA-nın Tədbirlər Planı hazırlansın (noyabr, 2018);*

*◆ Respublikamızda terminologiya sahəsinin daha da inkişaf etdirilməsi məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyasının hüquqi şəxs kimi fəaliyyət göstərməsinə dair müvafiq dövlət orqanları qarşısında vəsatət qaldırılsın (2018-ci ilin birinci rübündə);*

*◆ AMEA-nın Humanitar Elmlər və İctimai Elmlər bölmələrinin institut və təşkilatlarına tapşırılsın ki, AMEA nəzdində Türkologiya İnstitutunun yaradılması ilə əlaqədar təkliflərini HEB-ə təqdim etsinlər (2018-ci ilin birinci rübü);*

*◆ Humanitar sahədə magistratura və doktorantura təhsilində elmin müasir tələblərinə cavab verən ixtisasların müəyyənləşdirilməsi və gənc kadrların cəlb edilməsi üçün bölmə institutlarına müvafiq tapşırıqlar verilsin (2018-2019-cu tədris ilində).*

*– Humanitar Elmlər Bölməsinin elmi müəssisə və təşkilatlarında ali məktəblərin baza kafedralarının fəaliyyətinə dair danışıqlar aparılsın (2018-ci ilin birinci yarısı).*

*– Elm və təhsilin inteqrasiyası zəminində AMEA-nın elmi tədqiqat müəssisələri ilə orta ümumtəhsil məktəbləri arasında qarşılıqlı əlaqələrin genişləndirilməsi məqsədilə AMEA-nın elmi müəssisələrində şagirdlər üçün "Açıq qapı" günləri təşkil edilsin (2018-ci il ərzində).*

*– Humanitar elmin təbliği istiqamətində əldə olunan nailiyyətləri Vikipediyada geniş təbliğ etmək məqsədilə elmi müəssisələrdə fəaliyyət göstərən gənc alim və mütəxəssislərə konkret tapşırıqlar verilsin (2018-ci ilin birinci rübündə).*

*– Multidissiplinar tədqiqatların aparılması istiqamətində humanitar elmlərin başqa elm sahələri ilə əlaqələrini möhkəmləndirmək məqsədilə baza təhsili dəqiq elmlər olan gəncləri humanitar yöndə tədqiqat aparmağa cəlb etmək üçün stimullaşdırıcı tədbirlər görülsün (2018-ci il ərzində ali məktəblərin son kurs tələbələri ilə ədəbi-mədəni görüşlər keçirilsin).*

*– Elmi ictimaiyyət arasında azərbaycançılıq ideologiyasının daha geniş yayılması üçün təşviqedici tədbirlər həyata keçirilsin (esse, inşa, başqa yazılı və şifahi ədəbi növlərdə müsabiqələr keçirilsin) (2018-ci ilin ikinci yarısı).*

*11. "Ana dilimiz – milli varlığımızdır" müsabiqəsi AMEA çərçivəsində daha da genişləndirilsin*

*və ümumrespublika miqyasında keçirilsin (2018-ci ilin sonunda).*

*– "Klassik ədəbiyyatımızı necə bilirik?" mövzusunda KİV-i cəlb etməklə müsabiqələr keçirilsin (ildə bir dəfədən az olmayaraq).*

*– Respublika elmi ictimaiyyətini yaxından cəlb etməklə Azərbaycan ədəbiyyatı, mədəniyyəti, incəsənətinin tanıdılması və təbliği ilə bağlı məqalələr İmpakt faktorlu jurnallarda və ingilisdilli e-ensiklopediyalarda nəşr edilsin (davamlı).*

*– "Fizika və lirika" mövzusunda konfransların, seminarların, dəyirmi masaların müxtəlif elm sahələri təmsilçilərinin iştirakı ilə müntəzəm keçirilməsi məqsədəuyğun hesab edilsin (rübdə bir dəfədən az olmayaraq).*

*– Kimyaçı və bioloq alimlərlə birgə insanın affekt hallarına təsir göstərən fizioloji və emosional-psixoloji amillərin hərtərəfli müştərək öyrənilməsi üçün birgə tədqiqatlar aparılsın.*

*– Dəqiq elm sahələrinin ən görkəmli nümayəndələrinin bədii və publisistik yaradıcılığından nümunələr toplanaraq çap edilsin (2018-ci il ərzində).*

*– Klassik ədəbiyyatda multidissiplinar baxışların tədqiqini daha da genişləndirmək üçün başqa elm sahələrinin (fizika, riyaziyyat, kimya, yer, biologiya, tibb və s.) nümayəndələrinin cəlb edilməsi intensivləşdirilsin. Bu məqsədlə onlar humanitar seminarlarında iştirak etmək üçün dəvət olunsun (rübdə 1 dəfə).*

*– Humanist fikrin müxtəlif rakurslarını araşdırmaq üçün AMEA-da bölmələrarası seminarlar təşkil olunsun (may, 2018-ci ildə ilk seminar).*

*– Orta əsrlərdə Avropa ölkələrində latın dilində yazmaq presedentinə uyğun olaraq ərəb və fars dillərində yaranmış Azərbaycan elmi və bədii ədəbiyyatının identikləşdirilməsini qlobal səviyyədə həyata keçirmək üçün Avropa dillərinə və mədəniyyətinə yaxından bələd olan kadrlar yetişdirilsin (2018-ci ilin ikinci yarısında).*

*– Rəqəmsal humanitar elmlər (digital humanities) sahəsində (kompüter dilçiliyi, riyazi poetika və s.) araşdırmaların aparılması üçün uyğun biliklərə malik olan mütəxəssislər cəlb edilməsi yolu ilə uyğun istiqamətlər inkişaf etdirilsin.*

*– Əməkdaşların dünyanın aparıcı ölkələrinin, o cümlədən Avropa ölkələrinin, habelə Rusiya və Türkiyənin qrant layihələrində iştirakı intensivləşdirilsin (2018-ci il ərzində).*

*– Thomson Reuters və digər beynəlxalq elmi bazaların imkanlarından geniş istifadə edilsin (davamlı).*

*– Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq qurumları ilə birgə müasir dərsliklərin və elmi-populyar ədəbiyyatların hazırlanmasında aktiv iştirak edilsin (2018-ci ilin ikinci yarısında).*

*– "Nitq mədəniyyəti" kitabının təkmilləşdirilərək yenidən nəşri (AMEA-nın "Elm" Nəşriyyatı ilə birgə) həyata keçirilsin (2018-ci il ərzində).*

*– Orta ümumtəhsil və ali məktəblərdə "Ritorika" fənninin tədris planına salınması problemi üzrə Azərbaycan Respublikası Təhsil Nazirliyi ilə birgə işlər aparılsın.*

*– AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutuna (akademik İsa Həbibbəyli) tapşırılsın ki, "Azərbaycan ədəbiyyatı tarixi"nin müstəqillik dövrünün tələblərinə cavab verən və azərbaycançılıq ideologiyasına söykənən yeni çoxcildliyi nəşr edilsin (2018-ci il ərzində).*

*– AMEA-nın Nəsimi adına Dilçilik İnstitutuna (akademik Möhsün Nağısoylu) tapşırılsın:*

*◆ Ümumxalq müzakirəsinin tövsiyələri nəzərə alınmaqla yeni mükəmməl "Orfoqrafiya" lüğəti kütləvi tirajla nəşr edilsin (may, 2018-ci il);*

*◆ "Yeni sözlər" lüğəti müntəzəm olaraq təkmilləşdirilmiş variantda çap edilsin (davamlı);*

*◆ Qloballaşmanın çağırışlarına uyğun olaraq müxtəlif elm sahələrinə aid terminoloji lüğətlərin hazırlanıb nəşr edilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Terminologiya Komissiyası ilə sıx əməkdaşlıq həyata keçirilsin.*

*– AMEA-nın Memarlıq və İncəsənət (AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə) və Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutuna (akademik Teymur Kərimli) tapşırılsın ki, ölkəmizdə muğamşünaslığın dərindən araşdırılması məqsədilə ərəb və farsdilli mütəxəssislərin yetişdirilməsi sahəsində birgə tədbirlər həyata keçirilsin.*

*– AMEA-nın Folklor İnstitutuna (akademik Muxtar İmanov) tapşırılsın:*

*◆ İnstitutda həyata keçirilən multidissiplinar (kulturoloji, texnokulturoloji, sosioloji, psixoanalitik) araşdırmalar – folklorun funksional strukturunun, İnternet mühitində gedən folklor proseslərinin və ənənəvi xalq mədəniyyətinin psixoanalitik semantikasının öyrənilməsi istiqamətləri prioritet hesab olunsun;*

*◆ Güney Azərbaycanda yaşayan soydaşlarımızın folklorunu sistemli şəkildə toplayıb nəşr etmək üçün uyğun bölgələrə ekspedisiyalar göndərilsin (may-sentyabr, 2018).*

*– Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə həvalə edilsin.*

* * *

**İctimai Elmlər Bölməsinin** illik hesabatını dinləyib müzakirə edərək Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALDI (№ 6/1,14 fevral 2018-ci il):**

*– AMEA-nın İctimai Elmlər Bölməsinin 2017-ci ildəki elmi və elmi-təskilati fəaliyyəti haqqında hesabatı təsdiq edilsin.*

*– AMEA-nın İctimai Elmlər Bölməsinin 2017-ci il üzrə elmi tədqiqat işlərinin nəticələri bəyənilsin və AMEA-nın illik hesa-batına daxil edilsin.*

*– İctimai elmlər üzrə Akademiyadankənar təşkilatların 2017-ci il üzrə elmi tədqiqat işlərinin nəticələri nəzərə alınsın və AMEA-nın illik hesabatına daxil edilsin.*

*– AMEA-nın İctimai Elmlər Bölməsində Azərbaycan Respublikası Prezidentinin Sərəncamlarının və Dövlət proqramlarının icrası ilə əlaqədar görülmüş işlər məqbul hesab edilsin.*

*– AMEA-nın İctimai Elmlər Bölməsi üzrə statistik məlumatlar nəzərə alınsın və AMEA-nın illik hesabatına daxil edilsin.*

*– AMEA-nın İctimai Elmlər Bölməsinə (akademik Nərgiz Axundova) tapşırılsın:*

*◆ Fənlərarası tədqiqatların elmi-nəzəri metodologiyasının hazırlanması məqsədi ilə bölmə nəzdində işçi qrup yaradılsın və onun əldə etdiyi elmi nəticələr müzakirə edilib, çap olunsun (2018-ci il ərzində);*

*◆ Beynəlxalq əməkdaşlığın fəallaşması üçün bölmə elmi tədqiqat müəssisələri alimlərinin beynəlxalq proqram, layihə və elmi tədbirlərdə iştirakı təmin edilsin (2018-ci il ərzində);*

*◆ İctimai elmlər üzrə magistratura və doktorantura təhsilində xüsusi ixtisaslara gənc kadrların cəlb olunması təmin edilsin (2018-2019-cu tədris ili ərzində);*

*◆ Müvafiq dövlət və qeyri-dövlət qurumları ilə əlaqələrin yaradılması və ödənişli əsaslarla onların elmi sifarişlərinin yerinə yetirilməsi istiqamətində tədbirlər görülsün;*

*◆ Akademik elmin və təhsilin inteqrasiyasının təmin edilməsi üçün ictimai elmlər sahəsində dərsliklər hazırlansın, birgə elmi layihələr çərçivəsində ixtisas kursları təşkil edilsin (2018-ci il ərzində).*

*– AMEA-nın Abbasqulu Ağa Bakıxanov adına Tarix İnstitutuna (akademik Yaqub Mahmudov) tapşırılsın:*

*◆ Əzəli Azərbaycan torpaqları tarixinin öyrənilməsi çərçivəsində Zəngəzur vilayətinin tarixi hazırlansın ( 2018-ci ilin II rübü);*

*◆ Azərbaycanlılara qarşı soyqırımın beynəlxalq miqyasda geniş təbliği istiqamətində konkret tədbirlər həyata keçirilsin (2018-ci ilin II yarısı).*

*– AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutuna (tarix üzrə elmlər doktoru Maisə Rəhimova) tapşırılsın:*

*◆ Arxeoloji qazıntılar zamanı aşkar edilmiş nümunələr üzrə Azərbaycanda müvafiq laboratoriyalarda radiokarbon, osteoloji, polibotanik və s. analizlərin aparılması istiqamətində xarici alimləri cəlb etməklə tədbirlər həyata keçirilsin (2018-ci ilin II rübü);*

*◆ Arxeoloji qazıntılar zamanı aşkar edilmiş nümunələr üzrə Azərbaycanda müvafiq laboratoriyalarda radiokarbon, osteoloji, polibotanik və s. analizlərin aparılması istiqamətində xarici alimləri cəlb etməklə tədbirlər həyata keçirilsin (2018-ci ilin II rübü).*

*◆ AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutuna (akademik Gövhər Baxşəliyeva) tapşırılsın ki, Qlobal sivilizasiyalararası əlaqələr kontekstində Şərq cəmiyyətlərinin fəaliyyəti və ictimai-mədəni təkamülünün qanunauyğunluqlarının kompleks sosial-humanitar tədqiqi istiqamətində araşdırmalar genişləndirilsin (2018-ci ilin II yarısı).*

*– AMEA-nın Fəlsəfə İnstitutuna (fəlsəfə üzrə fəlsəfə doktoru İlham Məmmədzadə) tapşırılsın:*

*◆ Elmi metodologiya problemləri ilə əlaqəli araşdırmalar genişləndirilsin;*

*◆ "Azərbaycan fəlsəfə tarixi" çoxcildliyi tamamlansın (2018-ci ilin II rübü);*

*◆ Elmi metodologiya problemləri, informasiya cəmiyyətinin fəlsəfi problemləri, sosioloji araşdırmalar istiqamətində araşdırmalar gücləndirilsin.*

*– AMEA-nın İqtisadiyyat İnstitutuna (iqtisad üzrə elmlər doktoru Nazim İmanov) tapşırılsın ki, "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi"nin müvafiq bəndlərinin icrasından irəli gələn tədbirlərin həyata keçirilməsi istiqamətində fəaliyyət genisləndirilsin.*

*– AMEA-nın Hüquq və İnsan Haqları İnstitutuna (hüquq üzrə elmlər doktoru Aytən Mustafayeva) tapşırılsın ki, İnsan hüquq və azadlıqları problemi, informasiya hüququ, tibbi hüquq və fiziki imkanları məhdud olan şəxslərin hüquqlarına dair elmi tədqiqatlar sahəsində fəaliyyət gücləndirilsin.*

*– AMEA-nın Milli Azərbaycan Tarixi Muzeyinə (akademik Nailə Vəlixanlı) tapşırılsın ki, Muzeyin milli fondlarında qorunan eksponatların elektron pasportlaşdırılması işi gücləndirilsin (2018-ci ilin II yarısı).*

*– AMEA-nın Elm Tarixi İnstitutuna (tarix üzrə elmlər doktoru Məryəm Seyidbəyli) tapşırılsın ki, Azrəbaycan Milli Elmlər Akademiyasının tarixinin daha dərindən tədqiqi üçün Sovet dövründə dövlət orqanlarının qərarlarının araşdırılması istiqamətində fəaliyyəti davam etdirilsin və tamamlansın.*

*– AMEA-nın Qafqazşünaslıq İnstitutuna (AMEA-nın müxbir üzvü Musa Qasımlı) tapşırılsın ki, "Qafqaz regionunda sülh və təhlükəsizlik problemləri: mövcud şərait və perspektivlər" və "Qafqaz ölkələrində daxili, ictimai-siyasi şərait" prioritet elmi istiqamətləri üzrə tədqiqatların gücləndirilməsi istiqamətində işlər davam etdirilsin.*

*– Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə həvalə edilsin.*

* * *

**AMEA-nın Naxçıvan Bölməsinin** 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatını dinləyərək, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALDI (№ 6/5, 14 fevral 2018-ci il):**

*– AMEA-nın Naxçıvan Bölməsinin 2017-ci ildəki elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatı təsdiq edilsin.*

*– AMEA-nın Naxçıvan Bölməsinin 2017-ci il üzrə elmi tədqiqat işlərinin nəticələri bəyənilsin və AMEA-nın illik hesabatına daxil edilsin.*

*– AMEA-nın Naxçıvan Bölməsindən kənar təşkilatların 2017-ci il üzrə elmi tədqiqat işlərinin nəticələri bəyənilsin və AMEA-nın illik hesabatına daxil edilsin.*

*– AMEA-nın Naxçıvan Bölməsinə (akademik İsmayıl Hacıyev) və bölmənin elmi tədqiqat müəssisələrinin direktorlarına tapşırılsın:*

*◆ Azərbaycan Respublikası Prezidentinin imzaladığı fərman və sərəncamların, Dövlət proqramlarının icrası istiqamətində fəaliyyət gücləndirilsin;*

*◆ Bölmə daxilindəki elmi tədqiqat müəssisələrinin multidissiplinar mövzular üzrə birgə elmi tədbirlər keçirməsi əsas fəaliyyət istiqamətlərindən biri kimi qəbul edilsin:*

*• birgə konfranslar, elmi seminarlar, elmi sessiyalar, təqdimatlar təşkil edilsin;*

*• müştərək elmi mövzuların müzakirəsində bölmənin müvafiq elmi tədqiqat müəssisələrinin birgə iştirakı təmin edilsin.*

*◆ Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2018-ci ildə "Naxçıvan şəhərinin İslam mədəniyyətinin paytaxtı" elan olunması ilə əlaqədar qarşıya qoyulan vəzifələrin icrası istiqamətində müvafiq tədbirlər həyata keçirilsin:*

*• mövzu ilə əlaqəli "Naxçıvan: İslam mədəniyyətinin paytaxtı" mövzusunda beynəlxalq elmi konfrans keçirilsin;*

*• Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi haqqında" və "1918-ci il azərbaycanlıların soyqırımının 100 illiyi haqqında" sərəncamlarının icrası ilə əlaqədar Tədbirlər Planında nəzərdə tutulmuş işlərin həyata keçirilməsinə nəzarət edilsin;*

*• bu mövzuda hazırlanan əsərlərin Bölmənin elmi tədqiqat müəssisələrində müzakirə olunması və rəyləşdirilməsi təmin edilsin.*

*◆ Büdcədənkənar maliyyə vəsaitinin əldə olunması məqsədi ilə beynəlxalq və respublika qrant layihələrinin alınması istiqamətində tədbirlər həyata keçirilsin;*

*◆ Bölmə əməkdaşlarının İmpakt faktorlu jurnallarda məqalələrinin dərc olunması istiqamətində fəaliyyət gücləndirilsin.*

*– Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyliyə həvalə edilsin.*

* * *

Elmin populyarlaşdırılması istiqamətində həyata keçirilən tədbirlərin daha geniş miqyasda gerçəkləşdirilməsi zərurətini nəzərə alaraq, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyəti **QƏRARA ALDI (№ 7/4,14 mart 2018-ci il):**

*– 09-30 oktyabr 2018-ci il tarixlərində AMEA-nın təşkilatçılığı ilə növbəti Beynəlxalq Elm Festivalı keçirilsin.*

*– AMEA-nın Alimlər Evinə (tarix üzrə fəlsəfə doktoru Nuridə Quliyeva) tapşırılsın ki, Beynəlxalq Elm Festivalının təşkilindən irəli gələn məsələlərin həllini təmin etsin.*

*– AMEA-nın İşlər idarəsinə (siyasi elmlər üzrə elmlər doktoru Fətəli Abdullayev) və AMEA Rəyasət Heyəti aparatının Maliyyə-iqtisad və mühasibat uçotu şöbəsinə (texnika üzrə fəlsəfə doktoru İlqar Quliyev) tapşırılsın ki, Beynəlxalq Elm Festivalının keçirilməsi ilə bağlı texniki, təşkilati və maliyyə məsələlərinin həllini təmin etsinlər.*

*– Qərarın icrasına nəzarət AMEA-nın vitse-prezidenti, akademik İbrahim Quliyevə həvalə edilsin.*